HAQQIN SÖZÜ – SÖZÜN HAQQI
30 NOYABR 2019-CU İL/ №022 (102)

# Yeni YOL

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

2

KÜSƏYƏNLƏR

3

TOLERANTLIQ VƏ İSLAMOFOBİYA

5

İRANDA NƏLƏR BAŞ VERİR?

7

“KİŞİLƏR AĞLAMAZ”

## PARLAMENTİN “GÜRCÜ ARZUSU – MÜHAFİZƏKARLAR” FRAKSİYASI BURAXILIB



Parlamentin “Gürcü arzusu – Mühafizəkarlar” fraksiyanın üzvləri Ruslan Hacıyev və Muxran Vaxtanqadzenin fraksiyanı tərk etmələri səbəbi ilə fraksiya buraxılıb.

R.Hacıyev “Gürcü arzusu – Yaşıllar”, M.Vaxtanqadze isə “Gürcü arzusu” fraksiyasına keçib.

Xatırladaq ki, bundan əvvəl üç deputat – Zviad Dzdidziquri, Nino Qoquadze və Giqa Bukia “Gürcü arzusu – Mühafizəkarlar” fraksiyasını tərk ediblər.

Beləliklə, Gürcüstan parlamentində çoxluğu təmsil edən fraksiyaların sayı 7-dən 6-ya enib.

## PARLAMENTDƏ “MÜSTƏQİL DEPUTATLAR” FRAKSİYASI YARADILIB



Gürcüstan parlamentində təmsil olunan tərəfsiz deputatlar yeni fraksiya yaradıblar. “Müstəqil deputatlar” adlanan fraksiyaya altı deputat – Levan Koberidze, Qedevan Popxadze, Koba Narçemaşvili, Levan Qoqiçaişvili, Mariam Caşi və Zviad Kvaçantiradze üzv olublar və ötən günlərdə parlament çoxluğunu tərk etmiş Mariam Caşi fraksiyanın sədridir. Bu haqda jurnalistlərə müstəqil deputat Levan Koberidze açıqlama verib.

L.Koberidze bildirib ki, fraksiya qərəzsiz olacaq və qoşulmaq istəyənlər üçün qapıları həmişə açıqdır: “Fraksiya qərəzsiz olacaq, bu gün parlamentdə və ya parlamentdən kənar baş verən heç bir siyasi qrupa tərəf olmayacaq.

Ümid edirik ki, bu fraksiyanın yaradılması başqa deputatlara fraksiya yaratmaq üçün stimul olacaq. Bizim fraksiyaya qoşulmaq istəyənlərə qapımız açıqdır və məsləhətlər verə bilərik”.

Qeyd edək ki, hazırda parlamentdə altı fraksiya var.

## PARLAMENTİN YENİ SƏDR MÜAVİNLƏRİ VƏ KOMİTƏ SƏDRLƏRİ TƏYİN OLUNUB



Parlamentin sədri Arçil Talakvadzeyə üç yeni müavin təyin olunub. Bu barədə qərar qanunverici orqanın büro iclasında qəbul edilib.

Qərara əsasən, hakim “Gürcü arzusu” Partiyasının rəhbərlik etdiyi parlament çoxluğunun lideri Mamuka Mdinaradze, Giorgi Kaxiani və Kaxa Kuçava vitse-spiker təyin ediliblər.

Digər qərara əsasən, David Sonqulaşvili Avrointeqrasiya, İrakli Beraia Xarici əlaqələr, Nino Tsilosani Ətraf mühit və təbii resurslar, Qenadi Marqvelaşvili Təhsil, elm və mədəniyyət, Quram Macaraşvili isə Prosedur məsələləri üzrə komitəyə rəhbərlik edəcəklər.

Qeyd edək ki, keçmiş iki vitse-spiker – Tamar Çuqoşvili, Zviad Dzidziquri və üç komitə sədri – Tamar Xulordava, Sofio Katsarava və Mariam Caşi qanunverici orqanda proporsional seçki sisteminə keçidlə bağlı qanunun qəbul edilməməsi səbəbindən vəzifələrindən istefa veriblər.

## TƏHSİL NAZİRİNİN 7 MÜAVİNİ OLACAQ



Gürcüstanın təhsil, elm, mədəniyyət və idman naziri Mixeil Çxenkelinin 7 müavini olacaq. Nazirin birinci müavini yenə də İrina Abuladze olaraq qalır. Həmçinin Badri Maisuradze, Levan Xaratişvili və Şalva Qoqoladze nazir müavini vəzifəsində qalırlar.

M.Çxenkelinin üç yeni müavini isə Ekaterine Dqebuadze, Tamar Kitiaşvili və Nunu Mitskeviç təyin olunub.

Qeyd edək ki, Ekaterine Dqebuadze adı çəkilən nazirlikdə İnklüziv İnkişaf İdarəsinə rəhbərlik edib. Tamar Kitiaşvili Gürcüstanda BMT-nin İnkişaf Proqramının (UNDP Georgia) peşəkar təhsil məsələləri üzrə məsləhətçisi olub və Nunu Mitskeviç Tbilisi Dövlət Universitetinin assosiativ professorudur.



## KÜSƏYƏNLƏR

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Üzeyir bəy Hacıbəyli "Müsəlmanın işi" felyetonunda yazır: "Camaatımızın cürbəcür xasiyyətləri vardır ki, qəzet yazıçıları hər gün o barədə də yazıb, yazıb, genə də yazırlar. Məsələn, yatmaq, tənbəllik, dalda qalmaq, xabi-qəflət, ağlamaq lazım olmayanda ağlamaq, ağlamaq lazım olanda ağlamamaq və sairə və sairə. Bəs, bir xasiyyətimiz dəxi vardır ki, o barədə qəzetçilərimizin hələ xəbəri yoxdu, amma mən bu gün bildim. O xasiyyət – küsməkdir. Həqiqət, camaatımız çox küsəyən imiş...".

Sonra isə dialoq vasitəsilə küsmək səbəblərindən bir neçəsini misal çəkir:

" – Balam, bizim qəzetimiz bu gün gəlib çıxmadı."

" – Balam, bir məqalə göndərmişdim ki, mənim başmaqlarım itibdir, neyçün qəzetənin bir guşəsində dərc eləmədiniz?" və sair.

Üzeyir bəyin dialoqundan bu qədəri ilə kifayətlənib öz misalımızda davam etmək istəyirəm:

– Qəzetə yazı göndərmişdim, niyə çap olunmadı?

– Qəzetdə orfoqrafik səhvlər var, daha oxuyan deyiləm.

– Mənim yazımı niyə son səhifədə vermisiz?

– Başsağlığı və təbrik yazmırsız, belə də qəzet olar?!

– Sizə nə qədər şeir göndərmişəm...

– Filan ziyalının yubileyi idi, gərək haqqında bir yazı yazaydınız.

– Qəzetin 100-cü sayında bəhmənkəsə niyə yer verməmisiz?

– Qəzetiniz mənə gəlib çatmır...

– Və sair, və ilaxır.

ƏVVƏLA

– Qəzetə göndərdiyiniz yazı nə oxucular, nə də cəmiyyətimiz üçün heç bir maraq kəsb etmədiyi üçün çap olunmadı.

İKİNCİSİ DƏ Kİ

– Qəzetdə iki-üç hərf səhvi ola bilər, bu normaldır, çünki o qədər yazını ikicə nəfər yoxlayır. Sözlərin sətirdən-sətrə keçirilməsinə gəldikdə isə, bu, orfoqrafik səhv deyil, sözləri hecalara proqram özü bölür və keçirir. Proqram isə təəssüf ki, dilimizi hələ yaxşı bilmir. Oxumursan, lap yaxşı, nə öz vaxtını itirirsən, nə də bizim vaxtımızı alırsan.

– Birincisi, çalışırıq ki, qəzetin bütün səhifələri aktual, vacib, maraqlı, oxunaqlı olsun. İkincisi, materiallar aktuallığına görə və rubrikalara uyğun sıralanır. Üçüncüsü də, biz bilmirik ki, siz səhifə yarışına çıxmısız.

– Bəli, qəzet məhz belə olar. Məqsədimiz əli internetə çatmayan Azərbaycandilli oxuculara ölkədə və dünyada baş verən siyasi, mədəni, təhsil və digər önəmli xəbərləri çatdırmaq, maarifləndirməkdir. Başsağlığı və təbriklərlə maariflənmək istəyirsinizsə qəbirsanlıqlara, yas mərasimlərinə, restoranlara və "den rojdeniyalara" tez-tez gedin.

– Biz şeir, poema, hekayə, povest, romandan parça dərc eləmirik. Millətin problemi nə şeir dərdidi, nə də romana sığan dərddi.

– Ziyalı qəzetdən özü haqqında tərifnamə oxumamalıdır, ziyalı özü qəzetə yazı yazmalıdır.

– Qəzetin 100-cü sayı üçün əli qələm, dili kəlam tutan hər kəsə yer ayırdıq, ya bəyənmədilər, ya da deyəmmədilər. Yazan da sağ olsun, yazmayan da. Dad küsəyən əlindən.

– Qəzetimiz min tirajla çıxır və məktəblərə, təşkilatlara paylanır. Qapı-qapı qəzet paylamırıq, zəhmət çək sən də arada bir məktəblərə, təşkilatlara get. Axı, "dağ Məhəmmədə sarı getmirsə, Məhəmməd dağa sarı gedər".

– Və sair, və ilaxır.

Üzeyir bəy felyetonunu bu sözlərlə tamamlayır, elə mən də bu yazını onun sözləri ilə tamamlayım ki, heç kəs küsməsin: "Qərəz, camaatımız çox küsəyəndir. Bir balaca o yan-bu yan oldu, bir də görürsən ki, xatirinə dəydi, küsdü, burnunu salladı... Özümüz özümüzdən küsürük. Ayrılar başımıza tənbəki oyunu açsa da, qapazlasa da, təpikləsə də küsmərik. Öz müsəlmanımızdan küsərik.... Balam, elə müsəlmanın işi belə olar".

## YENİ SİYASİ PLATFORMA YARADILIB

"Lelo" hərəkatı, Qurucular Hərəkatı və Yeni Sağlar partiyaları yeni siyasi platforma təsis ediblər.

Platforma paritet əsasda və bərabər tərəfdaşlıq əsasında formalaşıb.

Yeni Sağlar Partiyasının sədri Pikriya Çixradze bildirib ki, platforma cəmiyyətin etibarını qazanacaq: "Gürcüstan bizim vətənimizdir və biz onu güclü dövlətə çevirməliyik".

Yeni platforma Gürcüstanın bütün müxalifət partiyaları kimi proporsional seçki sisteminə keçidi dəstəkləyir.



## İLK DƏFƏ OLARAQ BAŞ NAZİRƏ MƏTBUAT KATİBİ TƏYİN EDİLİB



Baş nazir Giorgi Qaxaria özünə mətbuat katibi təyin edib. Mətbuat katibi vəzifəsinə baş nazirin beynəlxalq məsələlər üzrə müşaviri İrakli Çikovani təyin olunub.

G.Qaxarianın sözlərinə görə, bu vəzifə hökumət administrasiyasında yeni vəzifədir.

"Mətbuat katibi vəzifəsi administrasiya, vətəndaşlar və KİV arasında əlaqələrin daha effektiv olmasına kömək edəcək", - deyə baş nazir bildirib.

## GÜRCÜSTAN-AZƏRBAYCAN PARLAMENTLƏRARASI DOSTLUQ QRUPUNUN RƏHBƏRİ İSTEFA VERİB

Zviad Dzidziquri Gürcüstan-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri vəzifəsindən istefa verib. Bu barədə "Report"un Gürcüstan bürosuna o özü açıqlama verib.

Z.Dzidziquri bildirib ki, qanunverici orqanda öncə tutduğu bütün vəzifələri üzrə səlahiyyətlərini dayandırıb. Deputat artıq parlamentdəki iş otağını boşaldıb. Z.Dzidziquri bundan sonra müstəqil deputat olacaq.

Qeyd edək ki, Z.Dzidziquri 2016-cı ilin noyabrından parlamentin sədr müavini, 2017-ci ilin martından isə Gürcüstan-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri vəzifəsini tutub. Onun tutduğu vəzifələri tərk etməsinə səbəb noyabrın 14-də proporsional seçki sisteminə keçidi nəzərdə tutan qanunun parlamentdə dəstəklənməməsi olub.



## ƏVF İLƏ BAĞLI YENİ QAYDALAR HAZIRLANIB



Gürcüstanın Prezident Administrasiyası məhkumların əfv edilməsi ilə bağlı yeni qaydaların hazırlanması prosesini başa çatdırıb. Bu barədə Prezident Administrasiyası məlumat yayıb.

Yeni qaydaların hazırlanması məqsədilə dövlət qurumları və ekspertlərlə məsləhətləşmələr aparılıb.

Yeni qaydalarla ağır və xüsusi ağır cinayətlərə görə məhkum edilmiş şəxslərin əfv olunması üçün kriteriyalar müəyyən olunub, həmçinin nisbətən ağır cinayətlər törətmiş şəxslərin ittiham qərarlarına baxılması şərtləri sadələşdirilib.

Prezident əfvetmə prosesində ayrı-ayrı hallarda öz səlahiyyətindən istifadə edə biləcək. Əfvlə bağlı yekun qərar qəbul edilənə qədər prezident müvafiq dövlət idarələri və ekspertlərlə hər bir konkret iş üzrə bir daha məsləhətləşəcək.

2021-ci ilin yanvarın 1-dən etibarən Prezident Administrasiyasında əfvlə bağlı xüsusi elektron kargüzarlıq proqramı təqdim olunacaq.

Qeyd edək ki, prezident Salome Zurabişvili bu ilin sentyabrın 18-də əfvə moratorium qoyub. Buna sonuncu əfv fərmanı ilə xüsusilə ağır cinayət törətmiş və polis əməkdaşını qətlə yetirmiş şəxsin azadlığa çıxması səbəb olub.

## TÜRKİYƏ SƏFİRİ: TÜRKİYƏ-GÜRCÜSTAN DOSTLUĞUNA QARŞI CİDDİ TƏBLİĞAT APARILIR



"Bizim dostluğumuza qarşı ciddi təbliğat aparılır". Bunu noyabrın 25-i Türkiyə Cümhuriyyətinin Gürcüstandakı səfiri xanım Fatma Ceren Yazqan Gürcüstanın patriarxı II İlianın diplomatik korpus nümayəndələri ilə görüşündə deyib.

"Bir daha sizin hikmətli sözlərinizi dinləmək imkanına görə görüş üçün sizə təşəkkür edirəm. Gürcüstanla quru sərhədi olan NATO-nun üzvü ölkələrdən biri kimi xüsusən qeyd etmək istəyirəm ki, biz Gürcüstanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyirik. Həmçinin türk və gürcü xalqları arasında əsası qoyulan münasibətlərdəki böyük töhfənizi xüsusi olaraq qeyd etmək istəyirəm. Gürcü mənşəli Türkiyə vətəndaşlarını Gürcüstana mədəni irslə tanış olmaq üçün dəvətinizə görə sizə minnətdaram. Bu, bizim ölkələr arasında çox böyük əlaqədir. Mütləq qeyd olunmalıdır ki, 20 il ərzində bizim aramızda yaranmış bu cür stabil münasibət və əməkdaşlıq bunu istəməyənləri çox qıcıqlandırır. Bizim dostluğumuza qarşı ciddi təbliğat aparılır. Sizi əmin etmək istəyirəm ki, bizim ölkə hökuməti və mən bu təbliğata qarşı çıxmaq üçün hər şey edəcəyik. Bu təbliğat çoxmillətli və çoxdinli Gürcüstanda nifaq yaratmağa cəhddir. Həmkarlarımın arzularına qoşularaq sizə sağlamlıq arzu edirəm" - deyə Türkiyə səfiri bildirib.

## AZƏRBAYCANLA GÜRCÜSTAN ARASINDA DİPLOMATİK ƏLAQƏLƏRİN QURULMASINDAN 27 İL ÖTÜR

Azərbaycan və Gürcüstan arasında diplomatik əlaqələrin qurulmasının 27-ci ildönümü tamam olur.

İki ölkə arasında diplomatik əlaqələr 18 noyabr 1992-ci il tarixində yaradılıb.

1995-ci ilin fevral ayında Bakıda Gürcüstanın, 1996-cı ilin mart ayında isə Tbilisidə Azərbaycanın səfirlikləri açılıb. Dursun Həsənov 2017-ci ilin yanvarından Azərbaycanın Gürcüstandakı, Zurab Pataradze isə 2018-ci ilin avqustundan Gürcüstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiridir.

Azərbaycanın Gürcüstanın Batumi şəhərindəki Baş Konsulluğu 2010-cu ildən etibarən fəaliyyət göstərir. Azərbaycanın Batumi şəhərindəki Baş konsulu Pərviz İsmayılzadədir.



Gürcüstanın Azərbaycanın Gəncə şəhərindəki Baş Konsulluğu isə 2013-cü ildə açılıb. Gürcüstanın bu şəhərdəki Baş konsulu Nikoloz İaşvilidir.

Ölkələr arasında imzalanan sənədlərin sayı 100-dən çoxdur.

Mənbə: Report

## BATUMİDƏ TİKA TƏRƏFİNDƏN TAM YENİLƏNMİŞ TİBBİ MƏRKƏZİN AÇILIŞI OLUB



Acarıstan Muxtar Respublikasının hökumət başçısı Tornike Rijvadze yerli hakimiyyət və Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) nümayəndələri ilə birgə Batuminin yenilənmiş İnfeksiya Patalogiyası, QİÇS və Vərəm Xəstəlikləri üzrə Regional Mərkəzinin açılışında iştirak ediblər.

Yenilənmiş mərkəzin təmiri və təchizi 2017-ci ildən başlayaraq TİKA tərəfindən həyata keçirilib. 50 çarpayı üçün nəzərdə tutulmuş mərkəz yeni tibbi aparatlarla və ofis mebeli ilə təchiz edilib. Layihə çərçivəsində mərkəzin tibbi heyətinin məlumatlandırılmasının artırılması məqsədi ilə 18 həkim, 20 tibb bacısı, infeksionistlər, radioloqlar və laboratoriya əməkdaşlarını Türkiyədən gəlmiş mütəxəssislər hazırlayıb.

Açılış mərasimində həmçinin Acara sağlamlıq və sosial müdafiə naziri Zaal Mikeladze, Türkiyənin Gürcüstandakı səfiri Fatma Ceren Yazqan, Türkiyənin Batumidəki Baş konsulu Mahbule Koçak, Türkiyə Cümhuriyyətinin mədəniyyət və turizm nazirinin müavini Serdar Çam, TİKA-nın Tbilisi koordinatoru və Ali Şuranın deputatları iştirak ediblər.

## TBİLİSİDƏ "GÜRCÜSTANDA ZƏRƏRLİ VƏRDİŞLƏRİN QARŞISININ ALINMASI PROBLEMLƏRİ" MÖVZUSUNDA KONFRANS KEÇİRİLİB

Tbilisidə Gürcüstan Yaşılay Cəmiyyəti tərəfindən "Gürcüstanda zərərli vərdişlərin qarşısının alınması problemləri" mövzusunda konfrans keçirilib. Konfransda Tbilisi Dövlət Tibb Universitetinin professor və müəllim heyəti, QHT nümayəndələri, tələbələr və könüllülər iştirak ediblər.

Gürcüstan Yaşılay Cəmiyyətinin icraçı direktoru İsa Xəmmədov konfrans iştirakçılarını salamlayaraq sözü təşkilatın sədri Zviad Koçalidzeyə ötürüb. Z.Koçalidze təşkilatın məqsəd və vəzifələrindən, həmçinin həyata keçirilmiş layihələr haqqında məlumat verib.

Məruzəçilərdən Sağlamlığa Dəstək Alyansının sədri, professor Giorgi Baxturidze tütün asılılığı, Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq üzrə Milli Mərkəzin nümayəndəsi Robizon Tsiklauri alkoqol asılılığı, Tbilisi Dövlət Tibb Universitetinin professoru və Tibbi Ekologiya Asossiasiyasının prezidenti Marina Giorqobiani zərərli vərdişlərin insan orqanizminə təsiri mövzusunda çıxış ediblər.

Sonda məruzəçilər sertifikatlar və xatirə karikaturaları ilə, konfransda iştirak edən alim və iştirakçılar isə təşəkkürnamələrlə təltif olunublar.

## TOLERANTLIQ VƏ İSLAMOFOBİYA



Hacı BƏKİROĞLU
hacibakir@mail.ru

Hər bir millətin, hər bir din mənsubunun müqəddəs saydığı çərçivələr vardır ki, heç kimin bu çərçivələri təhqir etməyə və digər aşağılayıcı sözlər və hərəkətlər etməyə haqqı yoxdur. Bu, dinindən, dilindən, irqindən asılı olmayaraq hər kəsə aid olan bir məsələdir.

Bu gün Avropa ölkələrində, eləcə də dünyada tolerantlıqdan, inteqrasiyadan söz gedir, hər bir seminarlarında, konfranslarında bundan söz açırlar. Ancaq dedikləri ilə əməlləri üst-üstə düşmür.

Tolerantlıqdan, insan haqlarından söz açan "mədəni" Avropanın bir çox ölkələrində müsəlmanlar əleyhinə bir çox qanunlar qüvvədədir. Yəni ki, bu Avropada islamofobiya yaşanmaqdadır. Bu isə deyilən tolerantlıqla necə uyğunlaşır, artıq onu siz düşünün. İndi isə Avropadakı bəzi qanunları sizə qısa şəkildə təqdim edəcəm.

Son illərdə Avropada həddindən artıq sağ yönlü hökumətlərin yüksəlişi İslam əlehdarlığını qızışdırmışdır. Bu partiyalar ictimaiyyətə olan xitablarında islamofobiyanı ön planda tutduqları kampaniyaları da çox olmuşdur. Avropada geri qalmış bəzi irqçi partiyaların islamofobiyadan bəslənərək yüksəlişə keçdiyi də müşahidə edilməkdədir. Populist mühafizəkar siyasətçilər islamofobiyanı qızışdırmaqda, ifadələrində İslam əlehdarlığına geniş yer verməkdədirlər. Fransada milli cəbhə lideri Jean Marie Le Pen, İtalyada irqçi Şimal Liqası partiyası, Avstriyada Azadlıqlar Partiyası, Danimarkada Xalq Partiyası, Hollandiyada Pim Fortuyn Siyahısı Avropada yüksək səs çoxluğu ilə həddindən artıq sağçı, İslam əlehdarı partiyalardan bir neçəsidir. Bu partiyalar xüsusilə 11 sentyabr hadisələrindən sonra müsəlman əsilli immiqrantları hədəf almışlar.

2009-cu ilin sonlarında isə AB üzvü olmasa da AB ilə sıx əlaqələri olan İsveçrənin minarə mövzusunda referenduma getməsi digər ölkələrə də fikir verməşidir deyə bilərik. Üstəlik referendumda xalqın 58%-i minarə görmək istəmədikləri istiqamətində səs verməşdir. Bu hadisədən sonra Avropa Birliyindəki həddindən artıq sağ yönlü partiyalar öz ölkələrində də bənzər referendum çağırışları etdilər.

Yenə 2009-cu ildə aparılan bir ictimai araşdırmanın nəticəsində Belçikanın Flaman bölgəsində islamofobiyanın yüksəlişə keçdiyi təsbit edilmişdir.

Son günlərdə özünü mədəniyyətin beşiyi olaraq adlandıran Avropada, konkret desək Norveçdə yaşanan mədəniyyətsizlik İslam aləminə və müsəlmanlara qarşı sərgilənmiş bir aşağılayıcı hərəkətdir və islamofobiyanın bir nəticəsidir. Sözdə tolerantlığı təbliğ edən, insan haqlarından danışan Avropa müsəlmanların müqəddəs kitabı olan Qurani-Kərimin yandırılmasına səssizliklə tamaşa etdi. Polisin bu ədəbsizliyə tamaşaçı qismində durması isə bu ölkənin müsəlmanlara olan münasibətini biruzə verdi. Ancaq buna dözə bilməyən gənc, başqan adlandırdıqları ədəbsizə həddini bildirdi.

Bir şeyi yaxşı yadda saxlamalıyıq ki, İslam dini terror dini deyil, sülh, barışıq, xoşgörüş dinidir. Əgər bir dinin müqəddəs kitabındakı ayədə o dinin Peyğəmbərinə "Biz səni aləmlərə rəhmət olaraq göndərdik" və Peyğəmbəri "Mən gözəl əxlaqı tamamlamaq üçün göndərildim" deyirsə, bu din necə pis din ola bilər?

Nəticə olaraq onu deyə bilərəm ki, insanların həqiqəti görüb İslamı qəbul etmələri onları qorxutduğu üçün əngəl olmağa çalışırlar. Ancaq Allah dinini qoruyacaqdır.

# QİYMƏTLƏNDİRMƏ VƏ MİLLİ İMTAHANLAR MƏRKƏZİNİN RƏHBƏRİ: MÜƏLLİM OLMAQ İSTƏYƏNLƏRİN SAYI İKİQAT ARTIB



Son illərlə müqayisədə müəllim olmaq istəyənlərin sayı ikiqat artıb. Bunu Qiymətləndirmə və Milli İmtahanlar Mərkəzinin rəhbəri Sofio Qorqodze jurnalistlərə bildirib.

S.Qorqodzenin izahatına görə, qeyd olunan statistikanı müəllim kompetensiyasının təsdiq edilməsi imtahanına qeydiyyat olunmuş aplikantların sayına əsasən bildirib.

"Yaydakı imtahanlarla müqayisədə müəllimlik istəyi olanların sayı artıb. 2017-ci illə müqayisə etsək görərik ki, müəllim olmaq istəyənlərin sayı ikiqat artıb. Düşünürəm ki, bu vacib statistikadır", - deyə S.Qorqodze bildirib.

Xatırladaq ki, noyabrda təşkil edilmiş müəllimlərin kompetensiyasını təsdiqləmə imtahanına 2600-dən çox aplikant qeydiyyatdan keçib, onlardan 11 mindən çoxu müəllim olmaq istəyənlərdir.

# GÜRCÜSTAN ƏHALİSİNİN 4%-İ TƏHSİL PROBLEMİNİ ƏN VACİB PROBLEM HESAB EDİR

Beynəlxalq Respublika İnstitutunun (İRİ) araşdırmasına əsasən, Gürcüstan əhalisinin yalnız 4 faizi ölkə qarşısında duran problemlərdən ən əhəmiyyətlisinin təhsil olduğunu hesab edir.

Tədqiqata əsasən, sorğuda iştirak edənlərin 25%-i hesab edir ki, təhsil sahəsi son bir il ərzində geriləyib, həmçinin 25%-i təhsil sahəsində aparılan dəyişiklikləri müsbət qiymətləndirib, 40%-in isə buna yanaşması neytraldır.



Sorğuda iştirak edənlərin 51%-i Təhsil Nazirliyinin fəaliyyətini müsbət, 40%-i mənfi qiymətləndirib, 9%-i isə bununla bağlı heç bir fikir bildirməyib.

Sorğuda iştirak edənlərin 10%-i təhsili ölkənin gələcək demokratik inkişafı üçün vacib amil hesab edib.

Qeyd edək ki, sorğunu Araşdırmalar və Marketinq İnstitutu (İPM) 2019-cu il 11 sentyabrdan 14 oktyabra qədər olan dövrdə həyata keçirib. Araşdırmada səs vermək hüququ olan 1500 nəfər Gürcüstan sakini iştirak edib.

# MANDATUR XİDMƏTİ: BU İL MƏKTƏBLƏRDƏ 1365 QADAĞAN OLUNMUŞ ƏŞYA AŞKARLANIB

Mandatur Xidmətinin məlumatına əsasən, cari il yanvarın 1-dən noyabrın 11-nə qədər olan dövrdə ölkə miqyasında ictimai məktəblərdə 1365 qadağan olunmuş əşya aşkarlanıb.

Məlumata görə, qeyd olunan əşyalar arasında 1 odlu silah, 3 elektroşok və narkotik istifadəsi üçün lazım olan 13 əşya, ən çox isə – 891 tütün məhsulu, alışqan və kibrit aşkarlanıb. Əşyalar arasında 207-yə qədər kart və digər oyun əşyaları yer alıb. Həmçinin şagirdlərdə 77 ədəd soyuq silah (bıçaq) və 60 ədəd elektro siqaret aşkarlanıb.

Məktəblərdə aşkarlanmış qadağan olunmuş digər əşyaların siyahısı isə belədir: 6 ədəd küt əşya, 4 partlayıcı və ya zəhərli maddə, 10 ədəd pirotexniki vasitə, 5 ədəd pnevmatik, siqnal, və ya qaz vasitəsi, 14 iti silah, 48 ədəd beşbarmaq, 26 ədəd spirtli məhsul.

# MƏKTƏBƏQƏDƏR TƏDRİS MÜƏSSİSƏLƏRİNİN GƏLƏCƏK MÜƏLLİMLƏRİ ÜÇÜN BAKALAVR PROQRAMI QÜVVƏYƏ MİNƏCƏK



2020-2021-ci tədris ilindən universitetlər tələbələrə yeni bakalavr proqramı təklif edəcək. Proqram məktəbəqədər müəssisələrin gələcək müəllimləri üçün nəzərdə tutulub.

Təhsil, elm, mədəniyyət və idman nazirinin müavini Ekaterine Dqebuadzenin "etaloni.ge"yə bildirdiyinə görə, proqram əvvəl akkreditasiyadan keçməlidir və güman ki, gələn ilin tələbələri qeyd olunan ixtisası seçə biləcəklər.

"Bu proqramda kvalifikasiya çərçivəsi artıq var, yekun yoxlamalar aparılır və qanunvericiliklə uyğunlaşma məqsədi ilə məsələlər dəqiqləşdirilir. Ümid edirəm ki, tezliklə artıq universitet proqramının əsaslandığı bu çərçivə sənədimiz olacaq. Gözləntimiz var ki, gələn tədris ili üçün artıq hər şey hazır olacaq və istəyi olanlar qeyd olunan proqram üzrə təhsil ala biləcəklər, baxaq proses necə gedəcək. Ehtimal ki, bu, dörd illik proqram olacaq", - deyə E.Dqebuladze bildirib.

O qeyd edib ki, əgər bu bakalavr proqramı məktəbəqədər müəssisələrin gələcək müəllimləri üçün nəzərdə tutulubsa, çalışan müəllimlərə istəkləri və ehtiyac olduğu halda Müəllimlərin Peşəkar İnkişafı üzrə Milli Mərkəzin hazırladığı təlimlər keçmək imkanı veriləcək: "Qeyd etmək lazımdır ki, Müəllimlərin Peşəkar İnkişafı üzrə Milli Mərkəz daya-pedaqoqlar üçün treninq modulu hazırlayıb və məhz onlar ehtiyac olduğu halda çalışan müəllimlərin hazırlanmasını təmin edəcəklər".

# "MƏKTƏB TƏCRÜBƏÇİ MÜƏLLİMİ "AXTARAN"MÜƏLLİMLƏ ƏVƏZ EDƏ BİLƏR" – YANVARDAN VAKANSİYALAR ELAN OLUNACAQ



2020-ci ildən təcrübəçi müəllimlərlə müvəqqəti müqavilə bağlanacaq. Yanvarda bütün çalışan təcrübəçi müəllimlərin yerinə vakansiya elan olunacaq.

Müəllimlər Evinin məlumatına görə, əgər elan olunmuş vakant yerə məktəbə komissiya tərəfindən seçilmiş başqa müəllimlik istəyi olan şəxs gedərsə təcrübəçi pedaqoq fəaliyyətinə davam edə bilməyəcək və müqaviləsi dayandırılacaq. Əgər komissiya uyğun kadr seçməzsə təcrübəçi müəllim əvəzedici olana kimi fəaliyyətinə davam edəcək. Məlumdur ki, müsabiqədə "axtaran"lar da iştirak edə bilərlər.

"Məktəb təcrübəçi müəllimi "axtaran"la əvəz edə bilər. Bir müddət məktəbdə çalışmış, sonra məktəbi tərk etmiş, amma yenə müəllim olmaq istəyən şəxs "axtaran" ola bilər. Bu o demək deyil ki, "axtaran" müəllim təcrübəçi müəllimdən geridə qalır. Demək olmaz ki, bütün "axtaran"lar yeni məzun olmuş şəxslərdir və onların təcrübələri yoxdur. "Axtaran" on illərlə məktəbdə dərs demiş müəllim və sistemdə statussuz müəllim də ola bilər", - Müəllimlər Evinin nümayəndəsi bildirib.

Qeyd etmək lazımdır ki, "axtaran" müəllim olmaq istəyən şəxsdir. Həmçinin bakalavr diplomu (istənilən istiqamətdə) olan və fənn kompetensiyasını təsdiqləmiş məktəbdə çalışmaq istəyən şəxs də "axtaran" ola bilər. Eləcə də diplomu müəllimlik kvalifikasiyasına uyğun olan şəxs "axtaran" ola bilər. Müəllimlərin hazırlanması üçün 60 kreditlik proqramı keçmiş, ancaq hələ də məktəbdə çalışmayan şəxslər də "axtaran" hesab oluna bilərlər. Bundan əlavə, məktəbdə çalışmaq təcrübəsi olan, ancaq sxemə qoşulmamış pedaqoqlar da "axtaran" sayılır.

# GÜRCÜSTANIN ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLUNAN XARİCİ TƏLƏBƏLƏRİN SAYINA GÖRƏ AZƏRBAYCAN İKİNCİ YERDƏDİR



2015-2018-ci illərdə Gürcüstanın ali məktəblərinə Azərbaycan vətəndaşı olan 3 688 tələbə qəbul olunub. Bu barədə Gürcüstanın Miqrasiya Məsələləri üzrə Dövlət Komissiyasının 2019-cu il üzrə "Miqrasiya profili" hesabatında bildirilib.

Hesabat dövründə Gürcüstanın universitetlərinə daxil olan əcnəbi tələbələrin 23%-ni Azərbaycan vətəndaşları təşkil edib. Azərbaycan Gürcüstanın ali təhsil müəssisələrinə qəbul edilən xarici tələbələr arasında saya görə ikinci yeri tutub.

Birinci yerdə 6 582 tələbə ilə Hindistan qərarlaşıb. 2015-2018-ci illərdə Gürcüstanın ali təhsil müəssisələrinə qəbul olunan əcnəbilərin 41%-ni bu ölkə vətəndaşları təşkil edib. Üçüncü yerdə isə nigeriyalı tələbələrdir (796 nəfər/5%).

Yalnız 2018-ci ildə Gürcüstanın universitetlərinə 4 888 əcnəbi tələbə qəbul olunub. Onların 3 513-ü bir pilləli tibb, 1 188-i bakalavr, 183-ü magistratura, 4-ü isə doktorantura pilləsi üzrə təhsil alır.

Sənəddə qeyd olunub ki, əcnəbi tələbələrin Gürcüstanda ali təhsilə cəlb olunması məqsədilə 2017-ci ildən etibarən "Gürcüstanda təhsil al" layihəsi həyata keçirilir. Bu layihə çərçivəsində aparılan araşdırmanın nəticələrinə əsasən, əcnəbi tələbələrin 78%-i Gürcüstanda təcrübə keçməkdə maraqlıdırlar. Həmin tələbələrin təxminən üçdə bir hissəsi Gürcüstanda işə düzəlmək arzusunda olub. Araşdırma müəyyən edib ki, xarici tələbələr Gürcüstanda təcrübə keçmək və işlə təmin olunma sahəsində dil baryerinə görə çətinliklərlə üzləşirlər.

Mənbə: Report

***Səhifəni hazırladı: Aynurə ƏLİYEVA***

# İRANDA NƏLƏR BAŞ VERİR?

Son günlərdə İran İslam Respublikasında tüğyan edən hadisələr diqqət çəkməkdədir. İnformasiya əldə etmək baxımından İran "qapalı qutu" olduğundan ölkədə baş verən hadisələr barəsində sosial mediada müxtəlif məzmunlu məlumatlar yayılmaqdadır. Yalnız onu söyləmək olar ki, İranda baş verən etirazların əsl səbəbi uzun illərdən bəri toparlanmış daxili problemlərin kompleks təzahürüdür. Bu ölkədə 35 milyondan çox azərbaycanlının yaşaması, təbii ki, bizləri də yaxından maraqlandırır və hadisələrin axarını narahatçılıqla izləməkdəyik.

İranda etirazlara səbəb İranın daxili bazarında yanacağın qiymətinin artırılması və onun pərakəndə satışlarına məhdudiyyətlərin tətbiq edilməsi göstərilir. Hökumətin bu addımına etiraz bir çox şəhərlərdə əhalinin küçə və meydanlara axışması ilə nəticələndi. Hətta bəzi məntəqələrdə silahlı toqquşmalarda asayiş keşikçiləri və etirazçılar arasında ölən və yaralananların olduğu qeyd edilir. Hadislər barəsində Tehranın açıqlamaları həmişə olduğu kimi klassik xarakter daşıyır. İran prezidenti Həsən Ruhani ölkədə baş verən iğtişalarda ABŞ və İsrail "barmağının" olduğunu vurğulayır. Onun sözlərinə görə, İslam Respublikasının real düşmənləri qeyd olunan cütlükdür və onlar İranda daxili sabitlik və təhlükəsizliyin pozulmasına potensial təhlükə yaradırlar. ABŞ və İsrailin İranın teokrat rejminin devirilməsində maraqlı olmaları istisna edilmir. Ona görə də Ruhaninin dediklərində müəyyən dərəcədə həqiqət olsa da, İranda baş verən iğtişaşların sifarişçilərinin bir başa Vaşinqton və Tel-Əviv olması ehtimalı zəif dəyərlədirilir. Həqiqətdə isə real vəziyyət başqa cürdür.

Ölkədəki qarışıqlığı xarici amillərlə əlaqələndirməkdənsə, dövlətin idarəedici instiutlarının qeyri-effektiv fəaliyyətinin ayağına yazmaq daha məntiqli olardı.

İran iqtisadiyyatının böhran içərisində olması, istehsalın bütün sahələrində geriləmə və milli valyutanın sürətlə dəyərdən düşməsi etirazların başlıca səbəbidir. Deyilənlərə işsizlik səviyyəsinin yüksək olmasını da əlavə etsək mənzərənin fəlakətə yaxın durumunu təsəvvür edə bilərik. Son anda hökumətin daxili bazarda benzinin satışına tətbiq etdiyi yeni qaydalar əhalinin səbr kasasının daşması ilə nəticələndi. Belə ki, əgər əvvəllər hər bir İran sürücüsü ayda ən çox 250 litr benzin ala və hər litr üçün 0,3 dollar ödəməli idisə, indi bir ayda maksimum 60 litr benzin əldə edə bilər. Tətbiq edilmiş limitdən yuxarı isə sürücülər 0,9 dollar ödəmək məcburiyyətində qalacaqlar. İran hökuməti əhalini sakitləşdirmək üçün əldə edilən gəlirlərin aztəminatlı ailələrin tələbatlarının ödənilməsinə xərclənəcəyini vurğulayır. Ancaq çətin ki, molla rejimi etirazçıların başını bu fırıldaqla qatmış ola. Əslində, benzin islahatlarının altında Ruhaninin başqa maraqlarının olduğunu müəyyənləşdirmək o qədər də çətin deyil.



Məlumdur ki, İran Yaxın Şərqin nəhəng dövlətidir və regionda öz kalibrindən daha böyük siyasət yürütməkdədir. Tehranın Yəmən, Livan və Suriya üzərində hegemonluğunun olması sirr deyil. Odur ki, bu siyasi labirintdə öz varlığını sübut etməsi üçün İrana əlavə maliyyə qaynaqları vacibdir. Uzun illər ABŞ tərəfindən tətbiq edilən embarqoların İslam Respublikasının iqtisadi potensialına yetərincə zərbələr vurması Ruhanini alternativ mənbələrə baş vurmağa vadar edir. Bunun üçün Tehran neft ixracatını artırmaq fikrindədir. Əgər hazırda İran sutkada 1,8 milyon barel neft ixrac edirsə, İran hökuməti bu göstəricini 2,5 milyon barelə, yəni sanksiya tətbiq edilənədək olan həddə çatdırmaq niyyətindədir.

İranda vəziyyətin tezliklə normallaşması təkcə bu ölkə üçün yox, eyni zamanda regionda əlavə münaqişə ocağının yaranmaması baxımından əhəmiyyətlidir. Görünür ki, İran hökuməti hadisələrin daha kəskin xarakter almaması üçün müəyyən güzəştlərə gedəcəkdir.

Sahib MUSTAFAOĞLU

# ORTA ƏSRLƏR SƏYYAHI ÖVLİYA ÇƏLƏBİNİN "SƏYAHƏTNAMƏ"SİNDƏ GÜRCÜSTAN

Orta əsrlərin məşhur Osmanlı səyyahlarından olan Övliya Çələbi on cildlik "Səyahətnamə"sində XVII əsrin sonlarında Cənubi Qafqaza səfəri zamanı Gürcüstanla bağlı o dönəmə dair çox önəmli məlumatlar vermişdir. Çələbinin bu əsərində maraqlı müşahidələr, tarixi məlumatlar və çox əhəmiyyətli dəyərləndirmələr vardır. Övliya Çələbinin səyahət yolu Ərzurumdan başlayıb İrəvan üzərindən Şimali İrana, oradan da təkrar şimala doğru yenə İrəvan üzərindən Gürcüstana olmuşdur. Onun Gürcüstana iki dəfə yolu düşmüşdür. Birinci səfərində İrəvan üzərindən bugünkü Kür üstünə, Dəmirçi-Həsənliyə gəlmiş və buradan Gürcüstanın içərisinə daxil olmadan Gəncəyə getmişdir. İkinci səfərində isə Dəmir Qapı Dərbənddən Dağıstan dağlarını aşaraq Şərqi Gürcüstan ərazisinə, Kaxetiyə daxil olmuş, Tiflis, Lori və Axalkalakidən keçərək öz ölkəsinə dönmüşdür.

Övliya Çələbi Gürcüstan səyahəti zamanı keçdiyi şəhərləri, kəndləri və qalaları bu şəkildə təsvir etmişdir:

Dəmirçi-Həsənli qəsəbəsi mənzili (Kür üstü və ətrafı/Dəmirçi-Həsənli nahiyəsi – Tiflis əyalətinin nahiyələrindən biri): Bura qədim zamanlarda tərəkəmə şəhəri imiş. İndi qış vaxtları Türkmən tayfalarının sakin olduğu böyük bir yurddur. Onların şəhərlərini (imarətlərini) IV Murad xan xarabalığa çevirmişdir.

Gürcüstan və Şavşadistan, Zoxorya (Kaxetidə) qəsəbəsi: İndi də Gürcüstan ölkəsində Tomriz xan həddində Tiflis xanına tabe böyük bir qəsəbədir. Əhalisinin hamısı gürcü aznaurlardır. Ancaq aralarında az da olsa göydolaq (türk boylarından biri) tayfası vardır.

Qala içərisində Kaxt (Kaxetidə) şəhəri: Şəhər Gürcüstan sərhədlərində məhsuldar bir yerdə beşguşəli şəkildə daşdan bina edilmişdir. Qalanın içində iki min ədəd abad ev, xaraba məscidlər, karvansaray və abad hamamlar və möhtəşəm bazarları var. Şəhərin Qafqaz dağlarının təpələrindən aşağı ətəklərinə gəlib Kaxt dağının bağlarını, cənnət xiyabanlarını sulayıb və Şərqə tərəf enərək Kür çayına tökülən (Alazan çayı nəzərdə tutulur) bir şirin suyu var. Əhalisinin çoxu gürcü, erməni və göydolaq (türk/azərbaycanlı) tayfasıdır. Şəhərdə minə yaxın müsəlman yaşayır, şəhərin on iki hakimi və qazıları vardır.

Tiflis şəhəri və qalası: Tarixçilərin qeyd etdiklərinə görə, bu qala Makedoniyalı İsgəndərin dönəmində tikilib. Bu qala uğrunda neçə yüz kərə neçə yüz min kərə yağılar gəlib şəhər qalalarını mühasirə etmiş, hökmdardan hökmdara keçmiş bir Tiflis karxanasıdır. Ən son qala Davud xanın idarəsi altında idi. 1578-ci ildə Davud xan hakim olduğu qalasını cəngavər kimi qorumağa çalışsa da Osmanlı şəhəri ələ keçirmişdir. Cənubi Qafqazdakı qalalar arasında Tiflis qalası kimi elə bir möhkəm və qüdrətli qala yoxdur. Ancaq bu gün Tiflis qalası Təbrizdə oturan Qızılbaş xanına tabedir. Şəhər Qızılbaş xanlarına bağlı olmasına baxmayaraq taxtında Qızılbaş xanına bağlı gürcülər oturur. Tiflis əyalətində on yeddi sultanlıq, yetmiş qazılıq, qırx nahiyə, on bir ölkə və yeddi oymaq olduğu qeyd olunur.

Tiflis qalası Kür çayı kənarında yalçın qayalar üzərində bir-birinə müqabil (qarşı-qarşıya) inşa edilmiş bir qaladır. İkisinin arasında Kür çayı axır. Bir qaladan digərinə böyük bir körpü ilə qaladan qalaya keçilir. Qalalardan biri kiçik, biri isə böyükdür.



Şəhər Qızılbaşların əlində olsa da, müsəlman əhalisinin çoxu sünni hənəfidir. Üləması, məhbub və məhbubələri boldur. Qala içərisində altı yüzə qədər ev vardır. Xan sarayı da bu qalada yerləşir. Şəhərin məscidi, karvansarayı, hamam və xudmani bazarı var. Ayrıca Tiflisdə çox sayda müsəlman böyükləri və ziyarətgahları var.

Tiflis isti suyunun vəsfi: Tiflisdəki isti su dadlı və ılıq bir sudur. Böyük qalanın Şərq tərəfində odunsuz və çırpısız qüdrət əli ilə qaynayan faydalı bir isti sudur. Burada qoyun kəlləsi və ayaqları bişrilir.

Cəfər MUSTAFALI
*İstanbul Universitetinin doktorantı*

# ABŞ-IN BEYNƏLXALQ RESPUBLİKA İNSTİTUTU GÜRCÜSTANDA APARDIĞI SORĞUNUN YEKUN NƏTİCƏLƏRİNİ YAYIMLAYIB

*ABŞ-ın Beynəlxalq Respublika İnstitutunun (IRI) ictimai fikirlə bağlı sonuncu araşdırmasının nəticələrinə əsasən, sorğuda iştirak edənlərin 68%-i ölkənin səhv istiqamətdə inkişaf etdiyini bildirib. Rəyi soruşulanların 71%-nin fikrincə pis iqtisadi vəziyyət ölkənin əsas problemidir.*

*Araşdırmaya əsasən, "əgər sabah seçki keçirilərsə hansı siyasi partiyanı dəstəkləyərdin" sualına respondentlərin 32%-nin cavabı olmayıb, yaxud da cavab verməkdən imtina ediblər. Rəyi soruşulanların 23%-i hakim "Gürcü arzusu" Partiyasını, 15%-i müxalif Vahid Milli Hərəkat Partiyasını, 5%-i isə Avropalı Gürcüstan Partiyasını dəstəkləyəcəyini bildirib.*

*Sorğu göstərir ki, 2019-cu ilin iyun ayına olan göstəricilərlə müqayisədə Gürcüstanda Avropa İttifaqı və NATO-nu dəstəkləyənlərin sayı əhəmiyyətli dərəcədə artıb. Belə ki, Avropa İttifaqını dəstəkləyənlər 75%-dən 80%-ə qədər, NATO-nu dəstəkləyənlər isə 68%-dən 71%-ə qədər artıb. Araşdırmaya əsasən, sorğuda iştirak edənlərin 83%-i ölkə üçün ən böyük təhlükə Rusiyanı görür.*

*18 noyabrda yayımlanan ictimai fikir araşdırması 11 sentyabrdan 14 oktyabra qədər olan dövrdə Beynəlxalq Respublika İnstitutunun sifarişi ilə Baltic Surveys/The Gallup Organization tərəfindən keçirilib və araşdırma çərçivəsində Gürcüstan miqyasında seçki hüququ olan 1500 nəfər sorğuda iştirak edib. Araşdırmanın müəlliflərinin izahatına əsasən, nəticələrin orta səhv olma həddi +/- 2,5%-dir*

### SİYASİ REYTİNQLƏR

Araşdırmaya əsasən, seçkilər bu həftə keçirilərsə rəyi soruşulanların 23%-i "Gürcü arzusu" Partiyasını (2019-cu ilin iyun ayında bu göstərici 26% idi), 15%-i Vahid Milli Hərəkat Partiyasını (2019-cu ilin iyun ayında 22%), 5%-i Avropalı Gürcüstan Partiyasını (2019-cu ilin iyun ayında 7%), 5%-i Leyboristlər Partiyasını (2019-cu ilin iyun ayında 5%), 4%-i Vətənpərvərlər Alyansını (2019-cu ilin iyun ayında 5%), 3%-i Vətəndaş Hərəkatını (2019-cu ilin iyun ayında 2%), 2%-i Demokratik Hərəkat – Vahid Gürcüstanı (2019-cu ilin iyun ayında 2%) dəstəkləmiş olardı.

Respondentlərin 4%-i heç bir partiyanı dəstəkləmədiyini, 32%-i isə hansı partiyanı dəstəkləyəcəyini bilmədiyini və ya cavab verməkdən imtina etdiyini bildirib. Əgər seçkilərdə istədikləri partiya iştirak etməzsə respondentlərin 1%-i heç kimə səs verməyəcəyini bildirib, 60%-i isə bilmədiklərini və ya cavab verməkdən imtina edib.

### QƏBUL EDİLƏN/QƏBULEDİLMƏZ SİYASİ LİDERLƏRİN REYTİNQLƏRİ

Sorğuda iştirak edənlərin ən böyük simpatiyasını Gürcüstan parlamentinin keçmiş katibi və Avropalı Gürcüstan Partiyasının deputatı Davit Bakradze qazanıb. O, soğuda iştirak edənlərin 57%-i üçün qəbul edilən, 36%-i üçün qəbuledilməzdir. D.Bakradzedən sonra paytaxtın meri Kaxa Kaladze (49% üçün qəbul edilən, 42% üçün qəbuledilməz) və Qurucular Hərəkatının lideri Davit Usupaşvili (47% üçün qəbul edilən, 41% üçün qəbuledilməz) gəlir. Daha sonra Milli Hərəkatın üzvü və Birləşmiş Müxalifətin lideri Qriqol Vaşadze (41% üçün qəbul edilən, 50% üçün qəbuledilməz) və Vətəndaş Hərəkatının lideri Aleksandre Elisaşvili (39% üçün qəbul edilən, 36% üçün qəbuledilməz) gəlir.

Araşdırmanın nəticələrinə əsasən, sorğuda iştirak edənlərin ən pis yanaşması Gürcüstan prezidenti Salome Zurabişviliyə qarşıdır. Respondentlərin 70%-i prezidenti qəbuledilməz, 23%-i isə qəbul edilən siyasətçi kimi qeyd edib. S.Zurabişvilidən sonra "Qirçi" Partiyasının lideri Zurab Caparidze (66% üçün qəbuledilməz, 14% üçün qəbul edilən), sonra bərabər göstəricilərlə Avropalı Gürcüstanın liderlərindən biri Qiqi Uqulava və Demokratik Hərəkat – Vahid Gürcüstanın sədri Nino Burcanadze (59% üçün qəbuledilməz, 31% üçün qəbul edilən) gəlir. Daha sonra "Gürcü arzusu"nun sədri Bidzina İvanişvili (57% üçün qəbuledilməz, 32% üçün qəbul edilən) və "Gürcü arzusu"nun siyasi katibi, müdafiə naziri İrakli Qaribaşvili (55% üçün qəbuledilməz, 33% üçün qəbul edilən) gəlir.

### SEÇKİ SİSTEMİ VƏ ADMİNİSTRASİYA

Araşdırma "Gürcü arzusu" Partiyasının sədri Bidzina İvanişvilinin 2020-ci ilin parlament seçkiləri ilə bağlı cari ilin 20 iyun hadisələrindən sonra ictimai etiraz fonunda proporsional sistemə keçidlə bağlı vədinə də toxunur.

Araşdırmanın nəticələrinə görə, sorğuda iştirak edənlərin 68%-i proporsional seçki sistemi haqqında eşidib. 2020-ci ildə parlament seçkilərinin tam proprosional sistemə keçməsi haqqında eşidənlərin ümumlikdə 78%-i bu sistemi dəstəkləyir (bunlardan 47%-i tam dəstəkləyir).

Respondentlərdən Mərkəzi Seçki Komissiyasının (MSK) fəaliyyətinə nə dərəcədə etimad etdikləri haqqında da soruşulub.

MSK-nın fəaliyyətinə rəyi soruşulanların 13%-i etimad edir, 33%-i yarı etimad edir, 25%-i müəyyən qədər etimad etmir, 20%-i etimad etmir, 9%-nin isə suala cavabı yoxdur.

### İNSTİTUTLARA ETİMAD

Araşdırmaya əsasən, institutlar arasında ən yüksək etimad – 86% orduyadır (2019-cu ilin iyununda bu göstərici 87% idi), daha sonra 85% pravoslav kilsəsi (2019-cu ilin iyun ayı 89%), 72% gürcü mediası (2019-cu ilin iyun ayında 70%), 59% polis (2019-cu ilin iyun ayında 52%), 51% təhsil sistemi (2019-cu ilin iyun ayında 40%), 46% yerli özünüidarəetmə (2019-cu ilin iyun ayında 48%), 37% parlament (2019-cu ilin iyun ayında 37%) və hökumət (2019-cu ilin iyun ayında 35%) gəlir.

### İŞSİZLİK – RƏYİ SORUŞULANLAR ÜÇÜN ƏSAS PROBLEM

Sorğuda iştirak edənlərin 68%-i düşünür ki, ölkə səhv istiqamətdə inkişaf edir (2019-cu ilin iyun ayında bu göstərici 66% idi), 22% isə əksinə düşünür (2019-cu ilin iyun ayında 23%), 10% bilmir, yaxud cavab verməkdən imtina edir.

Ötən araşdırmadakı kimi işsizlik ölkənin əsas problemi olaraq qalmaqdadır (53%), sonra problem olaraq yüksək qiymətlər (18%), yoxsulluq (6%), ərazi bütövlüyü (3%), müxtəlif iqtisadi məsələlər (3%) və xarici münaqişələr (3%) gəlir.

### AVROPA İTTİFAQI, NATO VƏ RUSİYA İLƏ MÜNASİBƏTLƏR

Araşdırmaya əsasən, ölkənin Avroatlantik strukturlara üzv olmasını dəstəkləyənlərin sayı artıb. Respondentlərin 80%-i Gürcüstanın Avropa İttifaqına üzv olmasının tərəfdarıdır (2019-cu ilin iyun ayında bu göstərici 75% idi), NATO-ya üzvlüyü isə 71% dəstəkləyir (2019-cu ilin iyun ayında 68%).

27% hesab edir ki, Gürcüstanın xarici kursu yalnız Qərb yönlü olmalıdır (2019-cu ilin iyun ayında 30%), 49% düşünür ki, ölkə Qərblə yanaşı Rusiya ilə münasibətləri də qorumalıdır (2019-cu ilin iyun ayında 47%). Sorğuda iştirak edənlərin 12%-i istəyir ki, ölkənin kursu Rusiya yönlü olsun, ancaq Qərblə və Avropa İttifaqı ilə münasibətlər də qorunsun (2019-cu ilin iyun ayında 8%). 2019-cu ilin iyun ayı ilə müqayisədə ölkənin yalnız Rusiya kursunun olmasını istəyənlərin göstəricisi dəyişməz olaraq qalır (2%).

Sorğuda iştirak edənlərin 83%-i düşünür ki, Rusiya əsas siyasi təhlükədir, 72%-i isə Rusiyanın əsas iqtisadi təhlükə olduğunu düşünür (2019-cu ilin iyunu – 79% və 57%).

2019-cu ilin iyunu ilə müqayisədə Rusiyanın Gürcüstana qarşı aqressiyasının davam etdiyini düşünənlərin sayı 77%-ə qədər artıb. 15% düşünür ki, Rusiyanın aqressiyası bitib, ancaq yenilənməsi mümkündür (2019-cu ilin iyunu – 17%). Sorğuda iştirak edənlərin 4%-i hesab edir ki, Rusiyanın aqressiyası bitib və təkrar olmayacaq (2019-cu ilin iyunu – 5%).

Rəyi soruşulanların 34%-i hakimiyyətin Rusiya ilə münasibətlərini müsbət (2019-cu ilin iyunu – 33%), 56%-i isə mənfi qiymətləndirir (2019-cu ilin iyunu – 52%).

### MEDİAYA ETİMAD

Araşdırma göstərir ki, beynəlxalq yeniliklər haqqında məlumat almağın əsas mənbəyi yenə də televiziya olaraq qalır. Sorğuda iştirak edənlərin 83%-i baş verən xəbərləri gürcü telekanalları vasitəsilə (2019-cu ilin iyunu – 85%) öyrəndiyni bildirib. Daha sonra 21% və 10%-lə sosial media və gürcü internet resursları gəlir (2019-cu ilin iyunu – 20% və 14%).

Respondentlərin 5%-i dünyada baş verən yenilikləri rus telekanalları vasitəsilə öyrəndiklərini bildirib (2019-cu ilin iyunu – 4%).

Sorğuda iştirak edənlərin 39%-i gürcü media vasitələri arasında "İmedi" telekanalına etimad etdiklərini bildiriblər (2019-cu ilin iyunu – 37%), 2019-cu ilin sentyabrında yaradılmış "Mtavarı Arxı"yə 18%, "Rustavi 2"yə 13% (2019-cu ilin iyunu – 34%), "Pirveli teleşirkəti"nə isə 6% (2019-cu ilin iyunu – 4%) etimad etdiyini bildirib.

*Mənbə: civil.ge*

Gürcü dilindən tərcümə: Aynurə ƏLİYEVA

# "KİŞİLƏR AĞLAMAZ"

Ötən günlərdə dərsə gedərkən avtobusda 20-ci əsrin fransız yazıçısı Albert Kamyunun "Yad" əsərini oxuyurdum. Povestin baş qəhrəmanına anasını son mənzilə yola salarkən tabutu son dəfə açıb anasının üzünü görməyi təklif edirlər. Lakin oğul imtina edir və anasının dəfnində göz yaşı axıtmır. Baş qəhrəmanın bu davranışı duyğusuzluq və qəddarlıq kimi qəbul olunur və cəmiyyət tərəfindən qınağa səbəb olur.

Dərsdən sonra tənəffüsdə oğlan kurs yoldaşlarımdan soruşdum: "Niyə kişilər ağlayanda gözlərini gizlədirlər?" Cavablar bu cür oldu: "Ağlamaq kişilikdən deyil", "Utanıram", "Anam elə öyrədib", "Zəif görünməmək üçün", "Kişilər ağlamaz" və s.

Qədim zamanlardan başlamış ilk insan qidanı yalnız savaşaraq əldə edirdi. Savaşmaq üçün isə hər canlının ibtidai təbiətində aqressiya var. Vəhşi təbiətdə sağ qalmaq və qida tapmaq üçün oğlan uşaqlarında aşırı dərəcədə aqressiya və sərtlik xüsusiyyətlərini inkişaf etdirirdilər. Zaman keçdi və insanlar torpaqlara, məkanlara hakim olmaq istədilər, ərazilərini böyütmər üçün kişilər toplumlar yaradıb müharibəyə başladılar və müharibədə həmişə daha çox güc, aqressiya, sərtlik olan tərəf qalib gəlirdi. Kişilərin həyatı elə savaşlarda keçirdi. Həmin dövrlərdə insan ağrı-acıya təbiətində olan göz yaşlarıyla cavab versəydi həyatda qala bilməzdi. Bu səbəbdən dolayı, ağlamağı aqressiya ilə çıxarırdı və ali varlığın – insanın təbiətində var olan xüsusiyyətlər (hisslər): mərhəmət, kövrəklik, vicdan, incəlik, ağlamaq, mehribanlıq boğulmuş qaldılar.

Vaxt ötdü, dövran dəyişdi, bu gün müasir insanıq və qədim zamanla ən böyük fərqlərdən biri odur ki, bu gün kişilər evdə daha çox vaxt keçirirlər, biz qadınlarladılar, ətrafımızdadılar, bizimlə daha çox ünsiyyətdədilər, artıq sağ qalmaq üçün gündəlik aqressiyaya ehtiyac yoxdur. Lakin bir çox ailədə oğlan uşağını yenə qədim zamandakı kimi böyüdürlər: aşırı dərəcədə sərt və susdurulmuş mülayimliklə.

Qız uşağınız yıxılıb ağlayanda onu qucağınıza alıb əzizlədiniz. Həmin vəziyyətdə oğlan uşağınız ağlayanda ona "ağlama, kişisən sən" dediniz və bu, hər dəfə təkrarlandı. Oğlunuz həyacandan, sevincdən, ya kədərdən ağlayaraq üstünüzə gələndə "kişilər ağlamaz" deyə təkrarladınız. Sonunda istəyinizə çatdınız, ağlamadı, özünə qapandı. Öz insani hisslərindən utandırdınız oğlunuzu. Ağlayası olduğu yerdə dinməz durdu, hisslərini susdurdu, boğdu. Qorxanda "kişilər qorxmaz" dediniz. Qorxularıyla üz-üzə tək qoydunuz uşağı. Övladınızın hər dəfəsində içinə saldığı duyğulara, hisslərə nə olduğunu heç düşündünüzmü? Tükəndimi, yoxsa öldürüldümü? Xeyr. Heç bir boğulmuş hiss səssiz qalmır, başqa bir şəkildə olsa da mütləq özünü büruzə verir. Ətrafınıza baxsanız illərlə boğulmuş hissləri, dilə gətirilməyən narahatçılıqları, inciklikləri görəcəksiniz. Anasını təhqir edən, atasına səs qaldıran oğulda, bacısına əl qaldıran qardaşda, həyat yoldaşına hörmət etməyən ərdə görəcəksiniz qadağan etdiyiniz göz yaşlarını. Siz oğullarınızı başqalarının acısına kar və kor böyütdünüz.

Uşaq gözünü dünyaya açandan ətraf mühitə adaptasiya olmağa başlayır. Siz hər canlını ona xətərli göstərdiniz. Uşaq hər şeydə bir təhlükə görməyə və aqressiv olmağa



başlayır. Hər dəfə laqeyd yanaşdığınız hirsi daşanda isə əzizlərinin, ailəsinin üzərinə tökülür. İcazə verin övladınız ürək yanğısını, can ağrısını göz yaşlarıyla biruzə versin, qəddarlıqla, hirslə deyil.

Kişilik xarakter deyil, cinsi mənsubiyyətdir. Mərhəmət, gülərüzlülük, vicdan, mehribançılıq, duyğusallıq, sevgi – bunlar yalnız qadın cinsinə aid deyil, bunlar hamının təbiətində var. Önəmli olan odur ki, uşaq vaxtından hansını daha çox inkişaf etdirəcəksiniz. Siz isə qəddarcasına ən lazımlı, ən uca olan hissləri – sevgini, qayğıkeşliyi, mülayimliyi oğlunuzda susdurdunuz. "Kişi" deyib ağır yüklə yüklədiniz oğullarınızı. "Sevmək" əvəzinə "vurmaq" öyrətdiniz, "gülümsə" əvəzinə "ciddi ol" dediniz və bu cür davrandığınız övladdan istilik və qayğıkeşlik gözlədiniz.

Şənhəyat ELMANQIZI

*İ.Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin Tibb fakültəsinin tələbəsi*

# MƏN NİYƏ GÜRCÜ DİLİNİ BİLMİRƏM?



Hardan və necə başlayacağımı bilmirəm. Fikirlər həddindən artıq çoxdur. Narahat suallar isə saysızdır.

Gürcüstana və ümumiyyətlə Azərbaycan türklərinin yığcam yaşadığı bölgələrdən birinə dünya görüşüm çərçivəsindən baxmaq istəyirəm.

Hər dəfə Gürcüstan gömrük məntəqəsinə pasportumu təqdim edəndə eyni sualla qarşılaşıram və sözün düzü bu, mənim pisimə gəlir, bir tərəfdən qıcıqlandırır, digər tərəfdən isə məyus oluram. Qarşılaşdığım sual "Gürcü dilini niyə bilmirsən?" sualıdır və mən bunu ildə ən azı iki dəfə eşitmək məcburiyyətindəyəm. Mənim kimilərinə Gürcüstanda gürcülərlə dil tapmaq ilbəil çətinləşir və bu çətinliklər anlaşılmazlıqlara gətirib çıxarır.

Mən niyə gürcü dilini bilmirəm sualına gəldikdə isə, bunun iki səbəbini göstərə bilərəm: birincisi və ən önəmlisi, məktəbdə gürcü dili dərslərinin keyfiyyətsiz olması. Mən və mənim kimi gürcü dilini bilməyənlər gürcü dili müəllimlərinin öz işlərinin mütəxəssisi olmamalarının nəticəsiyik. İkincisi isə, boya-başa çatdığım bölgədə gürcü dilinin təsirinin zəifliyi. Yəni yaşadığım bölgə Azərbaycan türkcəsində danışan insanlardan ibarət olub ki, bu da gürcü dilinə ehtiyacı minimuma endirib.

Biraz babalarımızın gənclik illərinə nəzər salaq. O zamanlar da Gürcüstan çoxmillətli bir məmləkət idi. Hər kəsin ortaq dili rus dili idi. Rus dili dünyada sayılıb-seçilən zəngin dillərdən biridir. Dünyada rus dilində 300 milyon insan danışır. Bu dildə istənilən xarici kinolara bax və ləzzət al, xarici ədəbiyyatı asanlıqla tap və oxu. Ən əsası isə, bu dil vasitəsilə bir çox millətlər bir-biri ilə ünsiyyət yaradır. Başqa xırda dilləri öyrənməyə ehtiyac qalmır.

Əlbəttə, nə qədər dil bilirsən o qədər insansan fikri ilə razıyam. Amma əgər mən demokratik bir dövlətin vətəndaşıyamsa mənə o dövlətin dilini bilmədiyimə görə ikinci dərəcəli baxılmamalıdır.

Dili sevdirmək gərəkdir, məcbur etmək lazım deyil. Və bir dili öyrənmək üçün həvəs olmalıdır. Həvəsi isə dövlət yaratmalıdır: iş yerləri qurmalı və yaşayış üçün şərait yaratmalıdır. Dövlət hər bir vətəndaşı haqqında düşünməli, onu millətlərə bölməməlidir.

Var olanı yox etmək asandır, olmayanı yaratmaq isə çox çətindir və hətta deyərdim ki, bəzi məqamlarda mümkünsüzdür. Rus dili ortaq dil olduğu halda nədən silib yox etdilər və ikinci dil olaraq ingilis dilini seçdilər?! Guya indi bütün Gürcüstan ingiliscə danışa bilir? Rus dilini də yaşlı nəsil unudur, gəclər isə bilmir. Rus dilini bilməmək və ya bilib yararlanmamaq Gürcüstanın ziyanına işləyən faktdır. İngilis dilinin imkanları daha da genişdir, bununla razıyam, amma ingilis dili Gürcüstanda tamam oturuşmamış rus dilinin səviyyəsini bu qədər öldürməyə ehtiyac var idimi?!

Siyasət kirli bir işdir. Siyasətçilər oyun oynayır, vətəndaşlar isə onun bədəlini ödəməli olur. Gürcüstanın dil siyasətindən isə millətçilik qoxusu gəlir. Dil bizim bərabərliyimizə mane olmamalıdır.

Ötən illərlə müqayisədə indi çox şey dəyişib. İndi daha çox gənclərimiz gürcü dilini bilir və daha çox öyrənir. Gürcüdilli məktəblərə axın var.

Azərbaycan türklərinin Gürcüstandakı universitetlərə axını rekord həddə çatıb. İstərdim ki, mənim vətənimdə mənim də dilimə dövlət səviyyəsində hörmətlə yanaşılsın və hətta status verilsin. Sıx yaşadığımız bölgələrdə şəhərlərin, kəndlərin adları Azərbaycan türkcəsində də yazılsın. Dilimiz gürcü cəmiyyətində dışlanmasın. Dışlandıqca arada soyuqluq yaranır və tarazlıq pozulur. Dövlətin bizim millətə olan diqqəti , millətimin dövlətə olan diqqətinə bərabər olmalıdır, yəni bir-birimizə saygı qarşılıqlı olmalıdır. Biz onsuz da dönüb gürcü olası deyilik.

Gürcüstandakı Azərbaycan məktəblərinin vəziyyəti də getdikcə çətinləşir. Azərbaycan isə sanki gözünü yumub, ağzına da su alıb. Və ona görə də Gürcüstan universitetlərində Azərbaycan məktəbləri üçün Azərbaycan türkcəsində kadrlar yetişdirilməlidir. Bu işdə uzaqgörənlik etmək lazımdır ki, sonra gec olmasın. Öz dilimizin arxasında özümüz durmasaq yazıq bizim günümüzə!

İnsaf AYDIN

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI 30 NOYABR 2019-CU İL/ №022 (102)

# Yeni YOL

yeni_yol@mail.ru İCTİMAİ QƏZET ეენი იოლი საზოგადოებრივი გაზეთი qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

## ASİYA İNKİŞAF BANKI YOL TİKİNTİSİ ÜÇÜN GÜRCÜSTANA 255,1 MİLYON AVRO AYIRIB



Asiya İnkişaf Bankı (AİB) Gürcüstanda yol tikintisi üçün 255,1 milyon avro vəsait ayırıb. Bununla bağlı Gürcüstanın maliyyə naziri İvane Macavariani və AİB-nin Gürcüstandakı daimi nümayəndəliyinin direktoru Şeyn Rozental arasında saziş imzalanıb.

Ayrılmış məbləğ Gürcüstanın əsas sürət avtomagistralı olan Şərq-Qərb yolunun gələcək inkişafına yönəldiləcək. Vəsait 14,7 kilometr uzunluqda olan dörd zolaqlı Şorapani-Arqveta yol hissəsinin inşası və yol hərəkətinin təhlükəsizliyinin artırılmasına xərclənəcək. Layihə çərçivəsində 14 körpü və 12 tunel tikiləcək.

Layihəni Gürcüstanın Avtomobil Yolları Departamenti vasitəsilə Gürcüstanın Regional İnkişaf və İnfrastruktur Nazirliyi həyata keçirəcək. Layihənin başa çatdırılması 2025-ci ilin iyun ayına planlaşdırılır.

## QUMAR OYNAYANLARIN AİLƏ ÜZVLƏRİ MƏHKƏMƏYƏ MÜRACİƏT EDƏRƏK ONLAR ÜÇÜN OYUNUN QADAĞAN EDİLMƏSİNİ TƏLƏB EDƏ BİLƏCƏKLƏR



Qumar oynayanların ailə üzvləri məhkəməyə müraciət edərək onlara oyunun qadağan edilməsini tələb edə biləcəklər. Bu haqda "Lotereya, qumar və gəlirli oyunların təşkili haqqında" qanuna daxil olunacaq paketdə qeyd olunub və təşəbbüs artıq parlamentə təqdim olunub. Qanun layihəsinin müəllifi parlamentin üzvü Levan Qoqiçaişvilidir.

Qanunvericilik paketi bir neçə qanuna dəyişiklik daxil edilməsini nəzərdə tutur. Qanun layihələrində həmçinin qumar oyunlarından asılı olan şəxslər üçün oyunun qadağan edilməsi məqsədi ilə onların ailə üzvlərinin məhkəməyə müraciət edə bilmə imkanının verilməsindən də söhbət açılır.

"Qanun layihəsinə əsasən, ailə üzvü məhkəməyə ərizə ilə müraciət edərək qumar oynayanı bu cür oyunlardan asılılığı olan şəxslərin siyahısına daxil edilməsini tələb edə bilər. Həmçinin ərizə ilə müraciət etmək dövlət vergisindən azad olunur", - layihədə qeyd olunub.

Qanun layihəsinin müəllifinin qiymətləndirməsinə görə, dəyişikliyin məqsədi və nəticəsi qumar və uduşlu oyunlara həddi-büluğa çatmamış şəxslərin qoşulmasının, ağır sosial fonun daha da pisləşməsi və pul saxtalaşdırılması ilə bağlı risklərin azaldılmasıdır.

Qeyd etmək lazımdır ki, Gürcüstanda 2018-ci ildə ən böyük dövriyyəsi olan 10 şirkətdən 5-i oyun biznesi idi. Bu, bir daha göstərir ki, Gürcüstanda qumar oyunları ən gəlirli biznesdir və onun illik dövriyyəsi rekord dərəcədə artır. Həmçinin 2018-ci ildə oyun (qumar) biznesinin dövriyyəsi 128% artıb. Əgər 2017-ci ildə sektorun dövriyyəsi 6,050 milyard lari idisə, 2018-ci ildə bu göstərici 13,806 milyard lari təşkil edib.

Mənbə: bpn.ge

## RUSİYA İLƏ GÜRCÜSTAN ARASINDA UÇUŞLAR BƏRPA OLUNA BİLƏR



2020-ci ilin birinci yarısında Rusiya və Gürcüstan arasında birbaşa hava əlaqəsinə qoyulan qadağa ləğv edilə bilər. Bu barədə "İzvestiya" nəşri hökumətdəki mənbəyə istinadən məlumat yayıb.

Qeyd olunub ki, Rusiya və Gürcüstan arasında birbaşa hava əlaqəsi cari ilin sonunda bərpa oluna bilərdi: "Lakin bunun qarşısını Gürcüstanda kütləvi nümayişlərlə müşayət olunan siyasi gərginlik alıb".

Nəşrin həmsöhbəti qeyd edib ki, "Russofobiyanın intensivliyi"nin azalmasına baxmayaraq, ölkədə lazımı təhlükəsizlik səviyyəsi yoxdur.

Gürcüstan baş nazirinin Rusiya ilə münasibətlər üzrə xüsusi nümayəndəsi Zurab Abaşidzenin sözlərinə görə, Gürcüstan tərəfi ölkələr arasında uçuşların bərpa edilməsi barədə qərarı yalnız alqışlaya bilər.

Qeyd edək ki, 2019-cu ilin iyun ayının sonunda Rusiya prezidenti Vladimir Putin aviaşirkətlərə 8 iyul tarixindən Rusiya vətəndaşlarının Gürcüstana daşınmasını qadağan edən fərman imzalayıb.

*Mənbə: Report*

## MAL-QARANIN İXRACINA TƏTBİQ OLUNAN MƏHDUDİYYƏTLƏR SƏRTLƏŞDİRİLƏCƏK



Gürcüstanın Ətraf Mühit və Kənd Təsərrüfatı Nazirliyi qanun layihəsi hazırlayıb. Qanun layihəsinə əsasən, Gürcüstandan mal-qaranın ixracına tətbiq olunan məhdudiyyətlərin sərtləşdirilməsi planlaşdırılır. Qanun layihəsi ilin sonuna qədər ölkə parlamentinə təqdim olunacaq.

Sənədə əsasən, ixrac olunacaq iribuynuzlu mal-qaranın çəkisinin 140 kiloqramdan 200 kiloqrama qədər artırılması nəzərdə tutulub.

Ətraf mühit və kənd təsərrüfatı nazirinin müavini Giorgi Xanişvilinin sözlərinə görə, mal-qara ixracına olan məhdudiyyətlərin sərtləşdirilməsi əsasən daxili bazarda ət çatışmazlığının yaranması ilə bağlıdır.

"Son 3-4 ildə Gürcüstandan, təxminən, 500 000 baş mal-qara ixrac olunub. Bu, təbii olaraq ölkədə mal-qaranın sayının azalmasına gətirib çıxarıb", - deyə G.Xanişvili bildirib.

Qeyd edək ki, Gürcüstandan mal-qara ixracının artması ölkədə ətin bahalaşmasına səbəb olur.

## UNICEF: GÜRCÜSTANDA 12 MİN UŞAQ MƏKTƏBƏ GETMİR

BMT-nin Uşaq Fondunun (UNICEF) məlumatına əsasən, Gürcüstanda 12 min uşaq məktəbə getmir. Məktəbdən yayınan uşaqlarla bağlı ikiillik layihəyə start verilib. Layihənin əsas məqsədi həmin uşaqların təhsil ocaqlarına cəlb olunması və onların təhsil səviyyəsinin yaxşılaşdırılmasıdır.

UNICEF-lə yanaşı, Bolqarıstan layihənin tərəfdaşı kimi çıxış edir.

Layihənin ilk mərhələsi 15 məktəb və 6 günlük mərkəzlərdə reallaşdırılacaq. Pilot layihənin uğurla başa çatdırılacağı təqdirdə, Gürcüstanın bütün məktəblərində "İkinci şans" adlı maarifləndirici proqramlar həyata keçiriləcək.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər MUSAOĞLU
Yayım Direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.